# Ədliyyə işçilərinin peşə bayramında

Ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə hər il noyabr ayının 22-də ədliyyə işçilərinin peşə bayramı qeyd edilir. Həmin gün rayonumuzun ədliyyə işçiləri də öz peşə bayramlarını qeyd etdilər. Onlar şəhərin mərkəzindəki Heydər Əliyev parkına gələrək ulu öndərin abidəsi önünə tər qızıl gül dəstələri qoyaraq dahi şəxsiyyətə öz dərin hörmət və ehtiramlarını bildirdilər.






Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər.

**Fotolar S. UMUYEVİNDİR.**

# Müasir Azərbaycan, müasir Qəbələ

## *Yolumuz daha irəliyə, daha yüksək tərəqqiyə doğrudur*

Yaşlı nəsil yaxşı bilir ki, Azərbaycanın, o cümlədən xüsusilə Qəbələnin son 10 ildəki inkişafı, tərəqqisi 70 illik sovetlər dönəmində və bundan əvvəlki dövrlərdə heç bir vaxt baş verməmişdir.

Doğrudur, analitiklər deyə bilər ki, axı vaxtilə elmi-texniki tərəqqi bu qədər inkişaf etməmişdir. Burada bir məsələni xatırladaq, yada salaq ki, sovet dövləti məkanına daxil olan respublikalar XIX əsrin axırlarında XX əsrin əvvəllərində sosial-iqtisadi inkişaf səviyyəsinə görə digər inkişaf etmiş dövlətlərin səviyyəsindən çox-çox geridə qalırdılar. Rusiyanın özü belə geri qalmış aqrar bir ölkə, kapitalizmin ən zəif inkişaf edən halqalarından biri idi. Demək olar ki, bu ölkələr hələ feodalizmdən kapitalizmə keçid dövrünü yaşayırdılar. İkinci dünya müharibəsi illərindən sonra isə sovet dövləti sürətlə inkişaf etdi. Ötən əsrin 50-ci illərin sonlarında, 60—70-ci illərində sosial-iqtisadi inkişaf tempinə görə dünyanın ən iri dövlətlərini belə üstələdi. Lakin son 10 il ərzində müstəqil Azərbaycanın sürətli inkişaf tempini keçə bilən bir fakt müşahidə edilməmişdir.

Qısa zaman kəsiyində Azərbaycan nəinki Müstəqil Dövlətlər Birliyinə (MDB-yə) daxil olan ölkələr arasında, hətta dünyada milli gəlirin inkişaf tempinə görə lider dövlətlər sırasına çıxa bilmişdir. Bu fakt artıq dünyanın beynəxalq beyin mərkəzləri, iqtisadi təhlil aparan digər qurumlar, ekspertlər tərəfindən təsdiq edilmişdir. Son 10 il ərzində bütün sahələr üzrə Azərbaycan qədər inkişaf edən ikinci bir dövlət olmamışdır. Bu müddət ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə artmışdır. İş yerlərinin sayı 1 milyon 200 mini ötmüşdür. İşsizliyin səviyyəsi 49 faizdən 5 faizə enmişdir.



Ölkə iqtisadiyyatına 150 milyard manat sərmayə yatırılmışdır, orta maaş 5,6 dəfə, pensiyalar 9,2 dəfə artmışdır.

Ötən 10 il ərzində sosial sahəyə də xüsusi diqqət yetirilmişdir. Belə ki, bu müddətdə ölkədə 270 məktəb, 500-ə yaxın xəstəxana, 35 olimpiya mərkəzi və sair obyektlər tikilmişdir. Başqa bir mühüm faktı da qeyd edək ki, ölkənin xarici dövlət borcu çox aşağı səviyyəyə enmişdir. Bu borc ümumi daxili məhsulun təxminən 7—8 faizini təşkil edir. Müqayisə üçün deyək ki, bu, bütün dünyada ən yaxşı göstərici hesab olunur.

Ölkədə istər son 10 ildə, istərsə də bundan əvvəlki illərdə əldə olunan uğurlar çoxdur. Bunların hamısını sadalamaq fikrimiz yoxdur. Artıq müstəqillikdən ötən qısa bir zaman kəsiyi, xüsusilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 10 il xalqın və bütün dünyanın gözü qarşısındadır. Hələ dost ölkələr bir yana qalsın, Azərbaycanın tərəqqisini istəməyən qüvvələr belə bu tərəqqini bu gün etiraf etməyə məcburdurlar.

Bəs bu sürətli inkişafın, tərəqqinin səbəbləri nədir, onun mənbəyində, kökündə hansı əsaslar dayanır?

Bu tarixi nailiyyət Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmişdir. Artıq Azərbaycan Avropa Şurası, ATƏT, Avropa Birliyi kimi beynəlxalq təşkilatların üzvüdür. İndi region ölkələrində heç bir siyasi məsələ Azərbaycanın iştirakı olmadan həll edilə bilmir.

Bütün bunların fövqündə düşünülmüş, reallığa, zamanın tələblərinə, həyatın gedişinə uyğun olan siyasət dayanır. Əsl məsələ də elə bundadır ki, cəsarətli real siyasət bütün uğurları şərtləndirir, hər bir uğurun rəhni olur. Tarix bu missiyanı bütün dövrlərdə təsdiq etmişdir. İstər ölkənin daxili siyasətində, istərsə də xarici siyasətdə İlham Əliyev məhz bu məsələni özünün mühüm fəaliyyət istiqaməti götürmüş, qarşıya qoyulan vəzifələrin icrası ən mühüm və prioritet xarakter daşımışdır.

Sualın cavabı çox sadə və birmənalıdır. Bu tərəqqinin səbəbləri Heydər Əliyev siyasətidir, onun mənbəyi isə bu siyasətin reallığıdır, həyata düzgün tətbiqidir. Bəli, Heydər Əliyev siyasəti İlham Əliyev missiyası sosial-iqtisadi inkişafı aparmaqdır.

10—15 il əvvəl heç bir beynəlxalq təşkilatın üzvü olmayan ölkə indi dünyanın 155 ölkəsinin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

Bu zaman ölkəni birtərəfli qaydada deyil, bütün sahələrin tarazlı inkişafı nəzərə alınmış, eyni zamanda inkişaf təkcə mərkəzə, iri şəhərlərə deyil, ölkənin hər bir regionuna yönəldilmişdir. Bu kontekstdə iqtisadi siyasətlə sosial siyasət bir-birini tamamlamışdır. Elə bunun nəticəsidir ki, qısa tarixi zaman kəsiyində ölkənin valyuta ehtiyatı 50 milyard dollara yaxınlaşmışdır. Azərbaycanın "Azərspace-1" peyki bu ölkəni artıq kosmik dövlət kimi bütün dünyaya tanıtdırır. Hələ bu peykin ikincisi, üçüncüsü də gözlənilir.

Ölkənin hərbi qüdrətinin ildən-ilə artması, ölkələr arası transmilli lahiyələrin həyata keçirilməsi sahəsində də geniş tədbirlər həyata keçirilmişdir. Böyük uğurlar gələcək inkişafın, daha sürətli, daha məqsədyönlü tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır. Bütün bunlara görə növbəti Prezident seçkilərində Azərbaycan xalqı cənab İlham Əliyevi 10 namizəd arasında yenidən dəstəklədi, ona böyük üstünlük verdi, onu Azərbaycan Respublikasının Prezidenti seçdi.

Yolumuz daha irəliyə, daha yüksək tərəqqiyə doğrudur.